

# YARADICILIQ KREDOSU, YAXUD ÖZÜNÜİFADƏNİN TƏSDİQİ

Məşhur insanlar, o cümlədən alimlər, kamil müəllimlər, professorlar haqqında fikir söyləmək böyük cəsarət və məsuliyyət tələb edir. Gərək özün onun səviyyəsinə yüksələsən ki, söylədiyin və yazdığın sözlər həmin alimin, ictimai xadimin yaradıcılığının, fəaliyyətinin əsl dəyərini verməyə layiq olsun. Filologiya elmləri doktoru, professor Nizami Xudiyev də belə şəxsiyyətlərdəndir. O, Azərbaycan dilinin gözəl bilicisidir, dilçidir, tanınmış təhsil işçisidir, pedaqoqdur, gözəl xarakterə malik, sağlam düşüncəli insandır.

Görkəmli dilçi alim Nizami Manaf oğlu Xudiyev 1 aprel 1949-cu ildə Naxçıvanın MR-nın Şahbuz rayonunda dünyaya gəlib və maraqlı bir həyat yolu keçib. Azərbaycan Dövlət Pedaqoci Universitetini fərqlənmə diplomu ilə bitirib. Adlı təqaüdlə oxuduğu üçün ona etimad göstərilmiş və APİ-də müəllim kimi saxlanılmışdı.

Nizami müəllim diapozonlu alimlərdəndir. O, bir dilçi-alim kimi bədii dildən başlayaraq (A.Şaiqin dili) ədəbi dil nəzəriyyəsinə qədərki azimutu öz qarşısında aça bilmişdir.

O, çalışqanlığı ilə, problemlərə aydın baxışı ilə seçilirdi. Hələ orta məktəb illərində Nizaminin dil və ədəbiyyat müəllimi Əbülhəsən cəlilov onun haqqında belə yazmışdır: «Nizami Xudiyevə IX-X siniflərdə dərs demişəm. O, təhsil illərində özünü çalışqan, tərbiyəli, fəal bir şagird kimi göstərirdi, verilən tapşırıqları tələb edilən səviyyədə düzgün və səliqəli yerinə yetirirdi. Onun gözəl keyfiyyətlərindən biri və ən başlıcası daim öyrənmək, buraxılan səhvlərə qarşı tənqidi yanaşmaq, öyrəndiklərini şagird yoldaşlarına çatdırmaq idi. Sinifdənxaric oxu üçün verilən bədii əsərləri, monoqrafiya və lazımi materialları oxuyur, vaxtından qabaq soruşurdu ki, mən bu mövzulara aid daha nələri oxumalıyam. Məsləhət alandan sonra ən dəqiq və ən çətin tapılan əsərləri oxumağa nail olurdu» («Görkəmli adamların həyatı» seriyasından. «Şagirdimlə fəxr edirəm» yazısından)

Dərsə belə həvəs, ciddi münasibət Nizamini tələbəlik illərində öz uzaq nəhəng xələfinin və adaşının adını ikiqat daşımaq zirvəsinə qaldırdı: Nizami təqaüdçüsü Nizami!

70-ci illərdə ali məktəbə qəbul olunmuşdum. İlk müəllimimişax duruşlu, düzgün qamətli, bütün ədəb-ərkan qaydalarına çox yüksək dərəcədə əmələ edən Nizami müəllimi görəndə adam sıxılırdı, həsəd çəkirdi, qibtə edirdi. Sonralar dilçi həmkarı oldum. Hər dəfə görüşəndə mənə «tələbəm» deyir. Bu söz məni daha da ruhlandırırdı.

Nizami müəllim geniş maraq dairəsinə malikdir, onun tədqiqat itiqamətləri çoxşaxəlidir: bədii dil və sənətkar, ədəbi dilimizin tarixi, radio, televiziya, ekran dili və s. Və bir tələbəsi kimi sevinirəm ki, Azərbaycan xalqının doğma övladları arasında Nizami Xudiyev kimi böyük türkoloq da var.

Mənim bu böyük insanla tanışlığım tələbəlik illərindən başlayır. I kursda «Azərbaycan dilindən təcrübi məşğələ» fənnini tədris edirdi. Bizə çoxlu suallar yağdırdı, orta məktəbdə aldığımız bilikləri təkrar etdirdi.

*(Davamı 12-ci səhifədə)*

# YARADICILIQ KREDOSU, YAXUD ÖZÜNÜİFADƏNİN TƏSDİQİ

*(Əvvəli 1-ci səhifədə)*

Sonrakı illərdə onda tələbəsinə qarşı bir istiqanlılıq gördüm, müəllimin uğurları, müxtəlif vəzi-fələrdə çalışması məni sevindirirdi, onunla fəxr edirdim. Məlumdur ki, elm aləmi, yaradıcılıq dünyası hər bir yaradıcı adam üçün ana qucağı qədər coğmadır. Mənə də düz yol göstərirdi, yaradıcılıq işləri ilə məşğul olmağı hər an deyirdi.

Nizami müəllimin gördüyü digər işlərlə yanaşı, müntəzəm şəkildə beynəlxalq simpozium və konfranslarda iştirakı filologiya elmimizə yalnız baş ucalığı gətirir.

Dəfələrlə xarici ölkələrdə birgə yığıncaqlarda iştirak etmişik. Şahidi olmuşam ki, filologiyanın nəzəri əsaslarını dərindən bilir və bildiklərini dil materialına tətbiq etməyi bacarır. Hər bir dilçiyə nəsib olmayan belə xüsusiyyətlər Nizami müəllimdə ən nadir göstəricilərdəndir.

Ədəbi dilimizin yorulmaz araşdırıcısı Nizami Xudiyev. Bu mövzuda olan kitab 1995 və 2018-ci illərdə çap edilmişdir. Alim-tədqiqatçı bu əsərdə Azərbaycan ədəbi dilinin 3 dövrünü- təşəkkül, ümumxalq dili əsasında formalaşması və inkişafı, eləcə də milli dil əsasında formalaşması və inkişafıv dövrlərini daha dərindən təhlil etmiş, müəllimi Ə.Dəmirçizadənin yolunu davam etdirmişdir. Əsərdə hər bir ictimai-tarixi şərait, normalar, üslublar, Həsənoğlu, Nəsimi, «Kitabi-Dədə Qorqud», «Dastani-Əhməd Hərami», Xətai, Füzuli, Vaqif, Zakir, Axundov, S.Ə.Şirvani və digər sənətkarların dili və üslubi haqqındakı təhlillər sadə və anlaşıqlı bir dildə oxuculara çatdırılmışdır. Bu sahədə onun yazdığı tədqiqatların dəyəri haqqında M.Şirəliyev, T.Hacıyev, R.Məhərrəmova, Z.Budaqova, Ə.Abdullayev, Q.Kazımov, M.Məmmədov, A.Axundov, V.Əliyev, M.Qasımov, Ə.Şükürlü, S.Sadıqova və bir çoxları yüksək fikirlər söyləmişlər, bu araşdırmanın elmi-tədris əhəmiyyətini düzgün müəyyənləşdirə bilmişlər.

Nizam Xudiyevin «Heydər Əliyev və Azərbaycan dili» kitabı. Bu dəyərli əsəri ilə o mənəvi yaddaş tariximizin ən güclü müəlliflərindən biri kimi yaşarlıq haqqı qazandı. Kitab bir çox dillərdə işıq üzü gördü. Türkcə olan variantda (Haydar Aliev: Devlet kuruculuğu ved il politikası. Bakı-«AzAtaM-2005, 320 səh.) oxuyuruq: Kitap çağdaş dünyamızın ünlü devlet adamı ve politikaçısı, bağımsız Azərbaycan devletinin kurucusu ve mimarı Haydar Aliev üzerine yazıldı. Yazar ünlü politikaçının portiresini, onun hayatı ve çalışmalarının önemli görüntülenini yaratmış, aynı zamanda Azerbaycan halkı için gerçekleştirdiyi çalışmaları konulu-publisistik açıdan yansıtmıştır.

Prof.Dr. Nizami Uəfərov bu əsər haqqında yazır k, biz eminik ki, Prof. Dr. Nizami Hudiyevin Türkdilli okurlara sunduğumuz kitabı deha liderin, milli strategin dil politikasına genel Türkoloji ilgisini daha da yükseltecektir.

Onun özü və əsərləri barəsində xeyli sayda xoş sözlər deyilmişdir. Bəziləri ilə hörmətli oxucuları tanış etmək yerinə düşər: «N.Xudiyevin istər nəzəri baxışlarında, istər ədəbi mülahizələrində, təhlillərində mürəkkəb elmi məsələlərə nüfuz etməsində çox maraqlı, özünəməxsus bir obrazlılıq var» (Ə.Xələfli). O, ictimai-siyasi mühitdə öz yerini tutmuşdur».

O, nə yazıbsa, xalqı üçün yazıb. Yazılmayan, ideya olaraq doğulub fikir beşiyində qalan əsərlər yeri itirilmiş dəfinədir.

Hələ aspiranturada oxuduğu illərdə elmdə inamlı addımlar atır. Aspirantura illərində yazıçı və dil problemi ilə məşğul olmağa başlayır. «Yazıçı və dil» bir problem kimi, həmişə filologiyanın araşdırma obyektinə çevrilmişdir. Bu problem dilçiliyin qarşısında daha mürəkkəb vəzifələr qoyur. Nizami Xudiyev hələ gənc ikən Abdulla Şaiqin dilini araşdıranda onun gözü önünə hər dəfə yeni aləm açılır, onun yaradıcılığının tədqiqi nəticəsində xalq dilinin zənginləşmə, saflaşma, təmizləşmə yolu da aydınlaşır. Nizami Xudiyev Azərbaycan dilçiliyi tarixində, öncə, yazıçı dili (Abdulla Şaiqin dili), xüsusən də Azərbaycan ədəbi dilinin tarixini tədqiq edənlərin ən görkəmli nümayəndəsidir. Azərbaycan dilinin görkəmli tədqiqatçısının elmi-ictimai fəaliyyəti genişdir. APİ-nin rektoru, ATV-nin prezidenti, pedaqoci institutda kafedra müdiri.

Hər bir elm sahəsi üzrə dərin biliyə, geniş dünyagörüşünə malik mütəxəssislər yetişdirmək universitetlərimizin əsas vəzifələrindən biridir. Həmin vəzifəni ləyaqətlə yerinə yetirmək üçün əsas tədris fənləri ilə yanaşı, konkret problemlər üzrə aparılan seminar məşğələlərinin də böyük rolu vardır. Bu baxımdan Nizami Xudiyevin Azərbaycan ədəbi dili tarixindən seminar məşğələlər üçün yazdığı kitab tələblərin stolüstü əsəridir, faydalı və əhəmiyyətlidir. Hazırlanmış vəsait tələbələr üçün bir də ona görə faydalıdır ki, vəsaitdə bilavasitə mövzularla əlaqədar ədəbiyyatın siyahısı verilmiş, bəhs olunan məsələləri sistemli şəkildə yadda saxlamaq üçün plan və tapşırıqlar da da göstərilmişdir.

Nizami müəllim xeyli sayda sanballı elmi əsərin müəllifidir. Həmin əsərlərin bir hissəsi Azərbaycanın sərhədlərindən kənarda - yaxın və uzaq xaricdə çap olunmuş və dil mütəxəssislərinin diqqətini cəlb etmişdir. Görkəmli Azərbaycan dilçi-sinin elmi yaradıcılığında ədəbi dilimizin bir çox başqa məsələləri də elmi şərhini tapmışdır. Onun doktorluq dissertasiyasında (Azərbaycan ədəbi dili tarixi) dilimizin çox mühüm problemlərindən bəhs olunur. Onun doktorluq dissertasiyası təkcə Azərbaycan dilçiliyində deyil, ümumən türkologiyada əlamətdar hadisə idi. Yeni sistemli bir konsepsiya ilə ədəbi dilimizin tarixini yaza bilmişdir. Dərslikdəki fikirlər, ümumiyyətlə, dilçilik elmi sahə-sində diqqətəlayiq hadisə kimi qeyd olunmalıdır.

Onun kitabları ədəbi dil, tərcümə işi və s. sahələrdə sistemli tədqiqatlardandır. «Azərbaycan ədəbi dili tarixi» (Ali məktəblər üçün dərslik), Bakı, «Elm və təhsil», 2018, 632 səh.) kitabı Azərbaycan ədəbi dili sahəsində dəyərli araşdırma olaraq qalır. Ədəbi dilin tarixi sahəsində N.Xudiyevin adı haqlı olaraq görkəmli türkoloqlarla yanaşı çəkilir. Onun tərcümeyi-halındakı əsərlərin ən çoxu ədəbi dil tariximizin aktual məsələlərinin tədqiqinə həsr olunmuşdur.

Orta məktəb dərsliklərinin («Azərbaycan dili») də əsas müəlliflərindən olmuşdur. O, Tofiq Hacıyev, Nizami Cəfərovla birlikdə 10-11-ci siniflərin Azərbaycan dili dərsliyinin müəllifidir. Monoqrafiyaları yüksək elmi səviyyədə yazılmışdır. Xüsusi elmi marağa səbəb olmuşdur.

Azərbaycanın daxilində də keçirilən elmi yığıncıqlarda fəal iştirak etmişdir.

N.Xudiyev Azərbaycan dilçiliyi sahəsində görkəmli alim olmaqla bərabər, ali təhsil sahəsində kamil və təcrübəli müəllim kimi tanınır. Professorun Azərbaycan Pedaqoci Universitetinin filologiya fakültəsində Azərbaycan ədəbi dilinin tarixindən, Orxon-Yenisey abidələrinin dilindən oxuduğu mühazirələr, apardığı ixtisas kursları və məşğələləri yüksək səviyyədədir. Onun dərs dediyi tələbələr indi nəinki tanınmış orta məktəb müəllimləri, bir qismi artıq hətta elmi dərəcə almış, hazırda AMEA-da işləyən, müxtəlif ali məktəblərdə, o cümlədən universitetlərdə təlim-tərbiyə işləri ilə məşğul olan tanınmış alimlərdir.

Nizami müəllimi respublikamıza təcrübəli, prinsipial və işgüzar bir təşkilatçı kimi tanıyırlar.

Nizami müəllim elm və təhsil sahəsində böyük uğurlar qazanan, yüksək mövqe tutan, həmkarları arasında öz təbii sadəliyi, səmimiliyi və alicənablığı ilə seçilən nəcib bir insandır. Yüksək mədəniyyəti ilə professor-müəllim heyətinin də, tələbələrin də, bütün onu tanıyanların dərin hörmətini qazanmışdır.

7 noyabr 2001-ci ildə Azərbaycanın əməkdar elm xadimidir.30 mart 2009-cu ildə «Şöhrət» ordeni ilə təltif olunmuşdur.



ADPU-nun rektoru, professor N.Xudiyev Universitetin veteran əməkdaşları arasında. 1995-ci i

«Qızıl qələm» mükafatı laureatı. 60-dan çox kitabın, 300-dən çox məqalənin müəllifidir. Lütfizadə adına Beynəlxalq Müasir Elmlər Akademiyasının və Nyu-York Elmlər Akademiyasınn həqiqi üzvüdür.

1970-ci ildən Azərbaycan Dövlət Pedaqoci Universitetində müəllim, baş müəllim, dosent, professor, həmkarlar ittifaqı komitəsinin sədri, birinci prorektor işləmişdir. 1994- 1996-cı illərdə Azərbaycan Pedaqoci Universitetinin rektoru vəzifəsində çalışmışdır. 1996-cı ildən Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri, 2005-2006-cı illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Uəmiyyətinin sədri vəzifələrində işləmişdir. Birinci və ikinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. 2005-ci il noyabrın 6-da 56 saylı Xaçmaz kənd seçki dairəsindən deputat seçilmişdir.

Əsas əsərləri: Azərbaycan antroponimlərinin təşəkkülü və inkişafı. Bakı, Azərnəşr, 2005 (160 s.), Azərbaycan ədəbi dili tarixi. Ali məktəblər üçün dərslik. Bakı, Maarif, 1995 ( 496 s.), Azərbaycan ədəbi dili tarixi. Ankara, 1997 (491 s.), Azərbaycan ədəbi dilinin sovet dövrü. Ali məktəblər üçün dərs vəsaiti. Bakı, Maarif, 1989 (400 s.), Xalqın tarixi haqqı: dilimiz, varlığımız. Bakı, Azərbaycan, 2003 (336 s.), Zamanın axarı ilə: Məqalələr, rəylər, müsahibələr, xatirələr, çıxışlar, ssenarilər. Bakı, Azərnəşr, 2004 (744 s.) və s.

Nizami Xudiyevin seçilmiş əsərləri 10 cilddə nəşr edilmişdir. «Xalqın tarixi haqqı: dilimiz, varlığımız» adlı VIII cild «Uənubi Azərbaycanda ədəbi dilimizin dünəni və bu günü» (Bakı, Elm və təhsil, 2014 (571 s.) əsəri alimin uzun illər sistemli şəkildə məşğul olduğu Azərbaycan ədəbi dili tarixi problemlərini yeni müstəvidə-Uənubi Azərbaycanda tarixən formalaşan söz ehtiyatları, bu zəngin mənəvi xəzinənin funksionallaşdığına səy edən görkəmli alim və tədqiqatçıların son illərdəki fəallığı kontekstində təqdim edilir.

Güney Azərbaycanda ədəbi dilin inkişafına mane olan şovinist qüvvələrin-erməni-fars tarixi birliyindən keçən əzablı yolun bu gün də davam edən nəticələri bu cilddəki müxtəlif məqalələrin təhlil obyektinə çevrilmişdir. Ədəbi-mədəni mühitdəki kəşflər, uğurlar burada ümumazərbaycan kontekstində dəyərləndirilir, mili-etnik kimlik, Azərbaycan xalqının etnogenezi məsələrinə bu gün İranda çap olunan elmi, bədii-publisistik əsərlərin təhlili əsasında geniş yer ayrılır. Xalq yazıçısı Elçin kitaba yazdığı «Vətəndaş qayələri və elmi səriştə» adlı ön sözdə deyir: «Bu kitabın mənim üçün ən əhəmiyyətli və ən əlamətdar cəhəti ondadır ki, onun səhifələrindəki Azərbaycan bütövdür, tamdır, buradakı Azərbaycann tarixi-coğrafi sərhədlərinə keşməkeşli əsrlərin ayrı-ayrı dövrlərdə xəritədə çəkdiyi siyasi-inzibati sərhədlər heç cürə müdaxilə etməmişdir: kitabdakı «Uənubi Azərbaycan ədəbi dilinin söz varlığı»ndan tutmuş «İrəvan azərbaycanlıların yurdudur» məqaləsinə qədər, bütün elmi məqalələr vahid, bütöv, parçalanmamış Azərbaycan mənəvi dünyasını ehtiva edir. Nizami Xudiyevin kitablarının sanbalının elmi-ictimai çəkisini artıran mühüm xüsusiyyətlərdən biri onun çoxcəhətliliyidir və bu mənada onun məqalələri görkəmli dilçi alim qələminin məhsulu olmaqla bərabər, Nizami Xudiyvin simasında, eyni zamanda tarixçi aliminin də, ədəbiyyatşünasın da qızğın (və obyektiv), elmi polemikalar aparmaq qabiliyyətinə və mədəniyyətinə malik publisistin də özünüifadəsidir.

N.Xudiyev ədəbi və bədii dil məsələləri ilə müntəzəm məşğul olan alimlərimizdəndir. Onun saysız-hesabsız məqalələrində ədəbi dilimizin inkişafı və nitq mədəniyyəti məsələləri, ədəbiyyatda obrazlılıq, elmi-texniki tərəqqi və dilin lüğət tərkibi, tərcümə ədəbiyyatı və ədəbi dilimiz, dilimizin zənginləşməsi məsələləri, müasir Azərbaycan dilinin leksikası, inisiallar və nitq mədəniyyəti, alınma sözlərin emosional-üslubi xüsusiyyətləri, dilimizin lüğət tərkibinin inkişaf qanunauyğunluqları, müasir Azərbaycan antroponimikasında proqressiv meyillər, Ə.Əbülhəsənin dili, sənətkar, söz, üslub; leksik-semantik inkişafın təkamülü; qanadlı sözlərin frazeologiyada yeri və struktur-semantik əlamətləri; Azərbaycan dilində birhecalı feillərin tədqiqi; terminoloji lüğətlərin tərtibi prinsipləri; Axısqa türklərinin dili və onlarla yazılar araşdırma obyekti olmuşdur.

Təhsil sistemimizlə bağlı düşüncələri, mülahizələri promlematik məsələləri əhatə edir.

N.Xudiyev Azərbaycan ədəbi dilinin tarixi kitabını təkmilləşdirir, yeni-yeni müddəalarla zənginləşdirir.

«Nizami Xudiyev hansı mövzuya müraciət edirsə, o, ilk növbədə Azərbaycanşünas (yalnız dilçi yox) alim və yenə də ilk növbədə vətəndaşdır. Nizami Xudiyev ədəbi dil tarixini, ümumiyyətlə, dil tarixi ilə vəhdətdə götürür və Azərbaycan ədəbi dilinin əlamətlərini dilimizin formalaşdığı III-VIII əsrlərdə axtarır və məsələyə yanaşmanın elmi-metoloji dəqiqliyi ona imkan verir ki, dilin fonetik, leksik və qrammatik quruluşuna, funksional ifadə səviyyəsinə istinad edərək ədəbi dilimizin təşəkkülünün ilkin şərtlərini müəyyənləşdirir» (Elçin, Xalq yazıçısı).

İran Respublikasında onun Radio, televizion və ədəbi dil, Qədim türk yazılı abidələrinin dili», «Xaçmaz-Görüşlər, düşüncələr. Seçilmiş əsərləri (Bakı, 2014, 475 s.) kitabları çap edilmişdir.

Qədim türk yazılı abidələrinin dili. Bakı, Elm və təhsil, 2015 ( 596 s.). Bu dərslikdə qədim türk yazılı abidələrinin tədqiqi məsələləri, fonetikası, leksikası və qrammatikası (morfologiya və sintaksis) tədqiq olunur. Kitabda qədim türk yazılı abidələrindən mətnlər, seminar məşğələləri üçün material və əski türk sözlərinin lüğəti də əks olunmuşdur.

Orfoqrafiya yazılı nitqin açarıdır. Məsələyə bu cür yanaşan alim həm də Orfoqrafiya komissiyasının üzvüdür. Yazıları da düzgün yazı mədəniyyətinin güzgüsüdür.

***(Davamı 15-ci səhifədə)***

# YARADICILIQ KREDOSU, YAXUD ÖZÜNÜİFADƏNİN TƏSDİQİ

*(Əvvəli 12-ci səhifədə)*

Pedaqoq və ictimai xadim olan Nizami Xudiyevin daxili dünyasını və fəaliyyət dairəsini böyük dilçi alim A.Axundov «Rahatlıq bilməyən yaradıcı insan» adlandırır. A yazır ki, Nizami Xudiyev fenomeni artıq sərhədlərimizi aşıb. Xarici ölkələrdən Türkiyədə və İranda onu daha yaxşı tanıyırlar. Təbrizi Həsən Əlizadənin «Nizami Xudiyev İran mətbuatında» məqaləsində oxucular Azərbaycan dilçisinin qonşu ölkədəki uğurları haqqında ətraflı bilgi ala bilirlər. Tehranda Nizami müəllimin çap edilmiş «Heydər Əliyev və Azərbaycan dili» kitabı ilə alim daha çox diqqəti cəlb edə bilmişdir.

«Radio, televiziya və ədəbi dil» adlı irihəcmli kitab 656 səhifədən ibarətdir. Onun istimai-siyasi fəaliyyətinin başlıca istiqamətləri dövlətçiliyimizlə, Azərbaycançılığımızla birbaşa bağlıdır. Ona görə də bütün fəaliyyəti ərzində xalqa və dövlətçiliyimizə töhfələr vermişdir. Bütün bunlarla yanaşı, Nizami Xudiyev Azərbaycan dilçilik elmini uğurla inkişaf etdirən alimlərdəndir.

Nizami müəllim həm intellektual, həm də özünün elmi səviyyəsi ilə nəzəri cəlb edir. Onun fikrincə, qədim türk yazılı abidələri türk xalqlarının milli düşüncə tərzini, mənəvi dünyasını və zəngin dil tarixini əks etdirən möhtəşəm sənət örnəkləridir. Azərbaycan və dicgər türk dillərinin tarixi inkişaf istiqamətləri, fonetik, leksik və qrammatik kateqoriyaların yaranması həmin yazılar əsasında müəyyənləşir.

Çağdaş türk ədəbiyyatının, mədəniyyətinin genetik əsasında qədim türk mədəniyyəti dayanır. Buna görə də qədim türk abidələrinin öyrənilməsi, nəşri, universitetlərin filologiya və tarix fakültələrində tədrisi türkün tarixinin, mədəniyyətinin, yazısının öyrəiməsi aspektində mühüm bir tələb kimi səslənir. Bu abidələr türk xalqlarının müştərək sərvəti sayılır.

XXI yüzilin dünyada türk əsri olaraq qəbul edildiyi bir zamanda həm qədim türk yazılı abidələrinin, türk yazısının, eyni zamanda müasir türk dillərinin müqayisəli şəkildə sistematik tədqiqinə, müasir tələblərə cavab verən cərsliklərin, dərs vəsaitləri və proqramların hazırlanmasına ehtiyac vardır.

Bu cəhətdən N.Xudiyevin türkoloci araşdırmaları arasında «Qədim türk yazılı abidələrinin dili» (Bakı, 2015) əsəri xüsusilə seçilir. Dərslikdə türk xalqları və onların məskunlaşdığı ərazilər təsvir olunur, bu abidələrin tədqiqi tarixindən bəhs edilir, onların dilinin fonetikası, leksikası, qrammatikası öyrənilir. «Qədim türk sözləri lüğəti» adlı bölmədə abidədə işlənmiş 8000 sözün və ifadənin mənası göstərilmişdir.. Bu da qədim türk dillərinin, abidələrinin, söz varlığının daha ətraflı öyrənilməsi üçün şərait yarada bilir.

Nizami müəllimin şəxsiyyəti və elmi tanıyanlar arasında uca tutulur. Nadir ziyalımızın alimliyi də, vətəndaşlığı da bir-biri ilə üzvi biçimdə bağlıdır. O, elmi gerçəkliyi, məntiqiliyi daim uca tutur.

Nizami Xudiyev tələbələrinə bir pedaqoq kimi gələcək həyat yollarında elmi addımlar atmaqda kömək edir. Dilimizin və dilçilik elmimizin gələcəyini düşünən Nizami müəllim filologiyamızın perspetivlərini də, həmin istiqamətdə elmi kadrların hazırlanmasının bu günkü çətinliklərini fikirləşir. Xeyli sayda doktorant və dissertantlara rəhbərlik edir, onların elm meydanına daxil olmasına əlindən gələni, gücünü əsirgəmir.

Şair-publisist Əli Rza Xələflinin belə bir sözü cəlbedicidir:...Vətən dildən başlanır. Uəmiyyət mənəvi həyatındakı işığına görə ziyalılara borcludur. Əlbəttə, həm də Nizami Xudiyev kimi ziyalılara.

70 yaşlı Nizami müəllimin keçdiyi həyat yoluna, elmi yaradıcılığına, dissertasiya müdafiələri zamanı söylədiyi nitqinə, mövzunu təhliletmə bacarığına, bütün fəaliyyətinə baxanda adam heyran qalır. Fəaliyyətindəki məhsuldarlıq, bir-birinin ardınca çap edilmiş monoqrafiya, kitab və dərslikləri onu biz tələbələri qarşısında ucaldır.

Əziz müəllimim, öncə sağlam olun, yaradıcılıq potensialınız tükənməsin, millətimizin xoş gələcəyi üçün elmi tədqiqatlarını və xeyirxahlığınızı davam etdirin. Yeni əsərlərini intizarla gözləyirik, Nizami müəllim!



***İsmayıl KAZIMOV,***
***filologiya elmləri doktoru, professor.***